


*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ *qapısı*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 72 (20.973)

*22 aprel 2014-cü il, çərşənbə axşamı*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 21-də Kamboca Krallığının Baş naziri Hun Senin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Kamboca Krallığının Baş nazirinin Azərbaycana ilk səfərinin əlaqələrimizin inkişafı baxımından tarixi əhəmiyyət daşıdığını bildirən dövlətimizin başçısı səfərin uğurlu olacağına əminliyini ifadə etdi. Prezident İlham Əliyev ölkələrimiz arasında əməkdaşlığın inkişaf etdirilməsi və güclü tərəfdaşlıq əlaqələri qurulması üçün yaxşı imkanların olduğunu vurğuladı. Dövlətimizin başçısı Kamboca Krallığının Baş naziri Hun Senin başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin təkcə siyasi sahədə deyil, iqtisadi sahədə də əməkdaşlıq imkanlarını müzakirə etmək üçün yaxşı fürsət yaradacağına ümidvar olduğunu bildirdi.

Baş nazir Hun Sen Kamboca Kralı Norodom Sihamoninin salamlarını Prezident İlham Əliyevə çatdırdı. Azərbaycana səfərindən məmnunluğunu ifadə edən Baş nazir xalqımızın ümummilli lideri Heydər Əliyev ilə iki dəfə görüşdüyünü böyük ehtiramla xatırladı. Baş nazir Azərbaycanda gedən sürətli iqtisadi inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını dedi. Baş nazir ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığının genişləndirilməsinin əhəmiyyətini vurğuladı. Kamboca Krallığının Baş naziri Hun Sen Azərbaycan Prezidenti İlham Əliyevi ölkəsinə səfərə dəvət etdi.

Dövlətimizin başçısı Kral Norodom Sihamoninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Kamboca Kralına çatdırmağı xahiş etdi.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 21-də Qazaxıstan Respublikasının müdafiə naziri Serik Axmetovu qəbul etmişdir.

# Sədərək rayonunda yeni nasos stansiyası istifadəyə verilmişdir

Əkinçiliyin inkişafını şərtləndirən əsas amillərdən biri də suvarma sistemlərinin təkmilləşdirilməsidir. "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nda bu sahədə də əsaslı tədbirlərin icrası nəzərdə tutulmuşdur. Artıq muxtar respublikada dövlət proqramında müəyyənləşdirilən vəzifələr uğurla həyata keçirilir.

Aprelin 21-də Sədərək rayonunda yeni nasos stansiyası istifadəyə verilmişdir.





Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış mərasimində iştirak etmişdir.

Ali Məclisin Sədri yeni nasos stansiyasının istifadəyə verilməsi münasibətilə istifadəçiləri təbrik edərək demişdir: "Ölkəmizdə kənd təsərrüfatının inkişafına xüsusi diqqət göstərilir. Ölkə Prezidentinin imzaladığı fərman və sərəncamlar, qəbul edilən dövlət proqramları bu sahənin inkişafına təkan vermiş, kənd təsərrüfatı məhsullarının istehsalı artmışdır. Bu gün Azərbaycanda ərzaq təhlükəsizliyi təmin olunmuş, istehsal olunan kənd təsərrüfatı məhsulları tələbatı ödəməklə yanaşı, həm də ixrac potensialı yaranmışdır".

Ali Məclisin Sədri demişdir: "Naxçıvan Muxtar Respublikasında da kənd təsərrüfatının inkişafı istiqamətində ardıcıl tədbirlər görülmüş, kənd təsərrüfatı məhsullarının istehsalı artmış, ərzaq təhlükəsizliyi təmin edilmişdir. Sədərək rayonunda nasos stansiyasının tikilməsi və yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması da bu sahədə görülən işlərin davamıdır. Azərbaycan Respublikası ilə İslam İnkişaf Bankı arasında imzalanmış müqaviləyə əsasən, layihənin icrasına 5 milyon manata yaxın kredit ayrılmışdır. Layihədə nəzərdə tutulan tədbirlər keyfiyyətlə və qısa müddətdə başa çatdırılmış, yeni nasos stansiyası tikilmişdir. Bu da Sədərək rayonunda əkinəyararlı torpaqların 40 faizinin dayanıqlı suvarma suyu ilə təmin olunmasına imkan verəcəkdir. Eyni zamanda yeni nasos stansiyası hesabına uzun müddət əkilməyən 1500 hektar torpaq sahəsi yenidən əkin dövriyyəsinə qatılmışdır. Görülən bu işlər kənd təsərrüfatının inkişafına, məhsul istehsalının artmasına və əhalinin məşğulluğunun təmin olunmasına imkan verəcəkdir".

Ali Məclisin Sədri demişdir: "Muxtar respublikada irriqasiya sistemlərinin təkmilləşdirilməsi istiqamətində icra olunan bu layihələr kənd təsərrüfatı sahəsində çalışanların qarşısında yeni vəzifələr qoyur. Belə ki, Sədərək rayonunda yeni əkin dövriyyəsinə qatılan



torpaq sahələrindən səmərəli istifadə olunmalı, özəl, dövlət və bələdiyyə mülkiyyətində olan torpaqların əkilməsi diqqət mərkəzində saxlanılmalıdır. Bunun üçün rayonda hər cür şərait yaradılmış, aqrolizinq xidməti təşkil edilmişdir".

Ali Məclisin Sədri torpaq mülkiyyətçilərinin yaradılan şəraitdən səmərəli istifadə edəcəklərinə, muxtar respublika iqtisadiyyatının inkişafına öz töhfələrini verəcəklərinə əminliyini bildirmiş, nasos stansiyasını işə salmışdır.

Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin sədri Əsgər Əsgərov məlumat vermişdir ki, yeni nasos stansiyasının tikintisi Sədərək rayonunda su təminatının yaxşılaşdırılmasına səbəb olmuşdur. Nasos stansiyasında 1-i ehtiyat olmaqla, 3 nasos quraşdırılmışdır. Hər birinin gücü 550 kilovat-saat olan nasosların su sərfi saatda 1800 kubmetrdir. Ərazidə suqəbuledici hovuz tikilmişdir. Kanaldan hovuza daxil olan su nasoslar vasitəsilə diametri 800 millimetrlik təzyiqli boru xəttinə vurulur. Təzyiqli boru xəttinin üzərində 6 suburaxıcı vardır. Həmçinin 1941 metr uzunluğunda müxtəlifdiametrli paylayıcı boru xətləri çəkilmiş, 73 ədəd suötürücü qapı qoyulmuşdur. Nasos stansiyasını elektrik enerjisi ilə təmin etmək üçün ərazidə 2 min kilovat gücündə transformator quraşdırılmış, 3700 metr uzunluğunda elektrik xətti çəkilmişdir.

Ali Məclisin Sədri bundan sonra da muxtar respublikanın torpaq sahələrində su təminatının yaxşılaşdırılması, yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması barədə müvafiq tapşırıqlar vermişdir.

Sonra Ali Məclisin Sədri Sədərək kəndinə gəlmiş, sakinlərlə görüşmüşdür.

Ali Məclisin Sədri nasos stansiyasının istifadəyə verilməsi münasibətilə sakinləri təbrik edərək demişdir: "Yeni nasos stansiyasının tikilməsi və irriqasiya sistemlərinin təkmilləşdirilməsi Sədərək rayonunun inkişafında mühüm əhəmiyyətə malik olan layihədir. Eyni zamanda bu, ölkəmizdə kənd təsərrüfatının inkişafı istiqamətində həyata keçirilən tədbirlərin tərkib hissəsidir. Layihə üzrə tikinti işləri aparılarkən 8 kilometrə yaxın müxtəlifdiametrli metal boru xətti, 7 kilometrdən artıq beton və 100 kilometrə yaxın torpaq kanal çəkilmişdir. Bunun da hesabına Sədərək rayonunda 1500 hektar torpaq sahəsi əkin dövriyyəsinə qatılmışdır. Görülən işlər Sədərək rayonunda əkinçiliyin inkişafına, bol məhsul istehsalına imkan verəcəkdir".

Rayon sakini Sultan Rzayev demişdir ki, muxtar respublikamız sürətlə inkişaf edir. Bu inkişafın tərkib hissəsi olaraq Sədərək rayonu da müasirləşir, tərəqqiyə qovuşur. Rayonda sakinlərin sosial problemləri vaxtlı-vaxtında həll olunur, yeni inzibati binalar, sosial obyektlər tikilir. Əhalinin məşğulluğunun təmin olunması, xüsusilə torpaq mülkiyyətçilərinin fəaliyyətinin yaxşılaşdırılması da diqqət mərkəzində saxlanılır. İstifadəyə verilən yeni nasos stansiyası da bu sahədə görülən işlərin davamıdır. Sultan Rzayev yaradılan şəraitə görə sakinlər adından minnətdarlığını bildirmişdir.

*Ardı 2-ci səhifədə*

## Sədərək rayonunun əkin sahələri genişləndirilir



"2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın qarşıya qoyduğu vəzifələr Sədərək rayonunda uğurla icra olunur, yeni meyvə bağları salınır, əkin sahələri genişləndirilir.

Aprelin 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Sədərək rayonunun Qaraağac kəndinə gəlmiş, yeni salınmış meyvə bağına və taxıl sahəsinə baxmışdır.

Məlumat verilmişdir ki, əkin aparılan yeni torpaq sahəsi 90 hektardır. Bunun 15 hektarında meyvə bağı salınmış, 45 hektarında isə taxıl əkilmişdir. Ərazinin 5 hektarında isə üzüm əkilməsi nəzərdə tutulur. Əkin aqrotexniki tələblər səviyyəsində aparılmış, ərazinin suvarılması üçün mövcud nasos stansiyasından boru xətti çəkilmişdir. Taxılın şırım üsulu ilə əkilməsi su itkisinin qarşısının alınmasına və bol məhsul istehsalına imkan verəcəkdir.

Ali Məclisin Sədri meyvə və taxıl əkini sahələrinin genişləndirilməsi, eləcə də ərazidə tərəvəz məhsulları əkininin aparılması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Ulu öndər Heydər Əliyev və Naxçıvan

Naxçıvan Dövlət Universitetində Yeni Azərbaycan Partiyası (YAP) universitet şəhərciyi ərazi ilk təşkilatının tədbirlər planına əsasən, "Ulu öndər Heydər Əliyev və Naxçıvan" mövzusunda elmi konfrans keçirilmişdir. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə, Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illik yubileyinə həsr olunmuş konfransı giriş sözü ilə açan universitetin rektoru, professor Saleh Məhərrəmov dünya şöhrətli siyasi xadim Heydər Əliyevin Azərbaycanın hərtərəfli, dinamik inkişafındakı əvəzsiz xidmətlərindən bəhs etmiş, ümummilli liderin həyatının və siyasi irsinin öyrənilməsinin zəruriliyindən danışmışdır.

Azərbaycan tarixi kafedrasının müdiri, tarix elmləri doktoru, professor Zəhmət Şahverdiyev "Azərbaycanın dövlət müstəqilliyinin bərpası və inkişafında Heydər Əliyevin rolu" adlı məruzəsində qeyd etmişdir ki, bu böyük siyasətçi hələ sovet imperiyası dövründə rəhbər vəzifələrdəki fəaliyyəti ilə Azərbaycanın gələcək müstəqilliyi üçün tarixi zəmin hazırlamış, Azərbaycan tarixinin, dilinin, mədəniyyətinin qorunması, iqtisadiyyatının gücləndirilməsi məqsədilə qətiyyətli siyasi addımlar atmışdır. XX əsrin sonlarında, mürəkkəb və taleyüklü tarixi bir dövrdə dövlətə və xalqa rəhbərliyi öz üzərinə götürmüş dahi rəhbər Heydər Əliyev Azərbaycanı siyasi anarxiya, vətəndaş müharibəsi, milli parçalanma, iqtisadi tənəzzül kimi bəlalardan xilas edərək dövlət müstəqilliyinin, milli dirçəlişin, sülh və tərəqqinin əsas qarantına çevrilmişdir.

Ümumi tarix kafedrasının müəllimi, universitet Gənclər Təşkilatının sədri, doktorant Arzu Abdullayev "Ulu öndər Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü" mövzusunda məruzə edərək ümummilli liderin Naxçıvandakı siyasi fəaliyyətindən danışmış, Naxçıvanın ərazi bütövlüyünün və muxtariyyətinin qorunmasının ulu öndərin adı ilə bağlı olduğunu bildirmişdir. Qeyd olunmuşdur ki, ümummilli lider Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi nəinki Naxçıvanın toxunulmazlığı, döyükdə, Azərbaycanın tərəqqisi, milli iqtisadi strategiyanın müəyyənləşdirilməsi, diplomatik münasibətlərin inkişafı və digər taleyüklü məsələlərlə bağlı mühüm siyasi qərarlar qəbul etmişdir. Məhz dahi şəxsiyyət Heydər Əliyevin rəhbərliyi sayəsində Naxçıvan Muxtar Respublikası Azərbaycanın dövlət müstəqilliyinin əldə olunmasında və qorunmasında əhəmiyyətli siyasi-tarixi rol oynamışdır.

Konfransda ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən slayd nümayiş etdirilmişdir.

**Mehriban SULTAN**

## Naxçıvanda ürək və damar cərrahiyyəsinə həsr olunmuş beynəlxalq konfrans keçirilmişdir

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin təşkilatçılığı, Türkiyə Respublikası İzmir Şəfa Universiteti xəstəxanalar qrupu, Ərzurum "Şəfa" Xəstəxanası, Azərbaycan Səhiyyə Nazirliyinin Mərkəzi Neftçilər Xəstəxanası, Azərbaycan Ürək və Sağlamlıq Assosiasiyası nümayəndələrinin iştirakı ilə "Duzdağ" otelində Naxçıvan Muxtar Respublikasının 90 illiyinə həsr olunmuş ürək-damar xəstəliklərinin aktual problemlərinə dair beynəlxalq elmi-praktik konfrans keçirilmişdir.***



Konfransı giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri Niyazi Novruzov qonaqları salamlamış, artıq ənənə halını alan belə tədbirlərin iki dost və qardaş ölkələr arasında mövcud qarşılıqlı əlaqələrin daha da inkişaf etdirildiyinə yönəldiyini bildirmiş, 20-ci əsrin əvvəllərində Naxçıvanın muxtariyyət statusunun qazanmasında Türkiyə Cümhuriyyətinin fəal rol oynadığını, Qars müqaviləsinin mühüm əhəmiyyət kəsb etdiyini, bu gün türk və Azərbaycan xalqlarının dostluğunun bütün dünyaya nümunə olduğunu vurğulamışdır. Mehriban dostluq və qardaşlıq əlaqələrinin bütün sahələrdə olduğu kimi, səhiyyə sistemində də inkişafından məmnunluğunu ifadə edən nazir belə tədbirlərin yerli həkimlərin peşə və bacarıqlarının, müasir tibbi biliklərinin artırılmasına xidmət etdiyini bildirmiş, konfransın işinə uğurlar arzulamışdır.

Mərkəzi Neftçilər Xəstəxanası Ürək-Damar Mərkəzinin direktoru, Azərbaycan Ürək və Sağlamlıq Assosiasiyasının sədri, tibb üzrə fəlsəfə doktoru Rəşad Mahmudov 20-ci əsrin sonlarında müstəqilliyinə qovuşan Azərbaycan səhiyyəsinin inkişafında Türkiyənin tanınmış tibb müəssisələri ilə qarşılıqlı əlaqələrin mühüm rolundan danışmışdır.

Türkiyə Respublikası Ərzurum "Şəfa" Xəstəxanasının baş həkimi Səbahəttin Dalğa son illər Naxçıvan səhiyyəsində aparılan quruculuq işlərinin region üçün nümunə olduğunu bildirmişdir.

Konfransda Türkiyə Respublikası İzmir Şəfa Universiteti xəstəxanalar qrupunun həkimləri, professor-doktor Tələt Tavlı, dosent-doktorlar Faiq Fövzi Okur, Emin Evren Özcan, Bəşir Akpınar, Fuat Gündoğdu, Ərzurum "Şəfa" Xəstəxanasının həkimi, operator-doktor Vulkan Yurtman, Mərkəzi Neftçilər Xəstəxanasının kardiocərrahı, tibb üzrə fəlsəfə doktoru Seymur Musayev, Naxçıvan Muxtar Respublikası Kardioloji Mərkəzin həkimi Süleyman Cəfərov, Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin kardioloqu Nail Möhbalıyev və başqaları ürək-damar xəstəliklərinin aktual problemləri barədə məruzələr etmişlər.

Tədbirdə tədris və reklam çarxları, açıq ürək əməliyyatlarından çəkilmiş videosüjetlər nümayiş olunmuş, suallar cavablandırılmış, qarşılıqlı təcrübə mübadiləsi aparılmış, dinləyicilərə Türkiyə Respublikası İzmir Şəfa Universiteti xəstəxanalar qrupunun sertifikatları, məruzəçilərə isə plaketləri təqdim edilmişdir.

Nazir Niyazi Novruzov konfransa yekun vurmuşdur.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*Babək Rayon Tarix-Diyarşünaslıq Muzeyində Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90-cı ildönümü münasibətilə keçilmiş açıq dərsdə Babək rayonunun Kərimbəyli və Yarımca kənd tam orta məktəblərinin şagirdləri iştirak etmişlər.*

## Açıq dərs keçilmişdir

Açıq dərsdə Kərimbəyli kənd tam orta məktəbinin tarix müəllimi Gülnar Quliyeva "Tariximizi öyrənirik" mövzusunda danışaraq bildirmişdir ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan qədim Naxçıvan diyarı milli tariximizdə istər tarixi, istərsə də zəngin mədəniyyəti baxımından mühüm yer tutur. Muxtar respublikanın mühüm geostrateji mövqedə yerləşməsi, Şərqlə Qərb arasında müxtəlif sahələrin inkişafında körpü rolu oynaması onun tarixi əhəmiyyətini daha da artırmışdır. Bu qədim diyara tarixin müxtəlif dövrlərində mənfur qonşularımız olan ermənilər tərəfindən əsassız ərazi iddiaları irəli sürülmüş, ötən əsrin həm əvvəllərində, həm də sonunda Naxçıvan düşmən hücumlarına məruz qalmışdır. İşğal xarakteri daşıyan bu hücumlara Naxçıvan mərdliklə sinə gərmişdir.

Yarımca kənd tam orta məktəbinin tarix müəllimi Sədaqət Quliyeva "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir" mövzusunda danışaraq bildirmişdir ki, qədim Azərbaycan torpağı olan Zəngəzurun Ermənistana verilməsi nəticəsində Naxçıvan Azərbaycanın əsas ərazisindən ayrı düşmüşdür. Bu qədim yurdun muxtariyyət statusu məsələsində naxçıvanlıların əzmkarlığı, görkəmli diplomat Behbud ağa Şahtaxtinskinin qətiyyətli mövqeyi öz sözünü demiş, nəticədə, Naxçıvanın muxtariyyət statusu RSFSR ilə Türkiyə arasında imzalanan Moskva müqaviləsində təsbit edilmişdir. 1921-ci il oktyabrın 13-də RSFSR ilə Azərbaycan SSR, Ermənistan SSR, Gürcüstan SSR və Türkiyə Respublikası arasında imzalanmış Qars müqaviləsinə əsasən, Naxçıvanın ərazisi, sərhədləri bir daha dəqiqləşdirilmiş, Naxçıvan diyarının tarixi taleyini, yəni onun Azərbaycanın tərkibində muxtar respublika kimi qalmaq imkanlarını bu beynəlxalq müqavilələr reallaşdırmışdır. Həmin müqavilələrlə Rusiya, Türkiyə və Cənubi Qafqaz respublikaları Naxçıvana Azərbaycanın tərkibində muxtar qurum kimi tanınan beynəlxalq hüquqi təminat vermişlər.

Bildirilmişdir ki, ötən əsrin sonlarına doğru ermənilərin muxtar respublikaya növbəti hücumlarının kəskinləşdiyi bir dövrdə Naxçıvanın muxtariyyət statusu ümummilli lider Heydər Əliyev tərəfindən yenidən gündəmə gətirilmiş və bu status qədim diyarın qorunub saxlanılmasında mühüm rol oynamışdır.

**✍ Səbuhi HƏSƏNOV**

## Növbəti iməcilikdə də yeni yaşıllıqlar salınıb

***Aprel ayının 19-da keçirilən iməciliklər yüksək səviyyədə təşkil olunmuşdu.***



Həmin gün Uzunoba Su Anbarı yaxınlığındakı 2,5 hektarlıq yeni salınmış meyvə bağında 3500 ədəd meyvə ağacı əkilmiş, Naxçıvan-Sədərək və Naxçıvan-Şahbuz-Batabat magistral avtomobil yollarının sağ və sol hissəsində yaşıllıqlara aqrotexniki qulluq göstərilmişdir.

Muxtar respublikanın ən böyük bölgələrindən biri olan Şərur rayonunun sakinləri əvvəlki iməciliklərdə olduğu kimi, bu dəfəki iməcilikdə də əzmkarlıq nümayiş etdirmiş, Xanlıqlar, Çomaxtur və Aşağı Daşarx kəndlərində yol kənarlarına bərpa məqsədilə 2000 ədəd meşə, Axura kəndində 500 ədəd, Havuş kəndində 200 ədəd meyvə, Şərur şəhərinin park və xiyabanlarına 500 ədəd gül kolu, 84 ədəd həmişəyaşıl ağac, kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliklərin ərazisində 1000 ədəd meyvə ağacı əkmiş, yaşıllıqlara aqrotexniki qulluq göstərmişlər.

İməcilik günü Babək rayonunun ərazisində də qələbəlik müşahidə edilmişdir. Naxçıvan-Ordubad magistral avtomobil yolunun Çeşməbasar kəndindən keçən hissəsində bərpa məqsədilə 600 ədəd meşə ağacı əkilmiş, Naxçıvan-Şahbuz-Batabat magistral avtomobil yolunun Kəhrəm kəndindən keçən hissəsində yaşıllıqlara aqrotexniki qulluq göstərilmişdir.

Bağlar diyarı Ordubad rayonunda da iməciliklər mütəşəkkilliklə keçirilmiş, Naxçıvan-Ordubad magistral avtomobil yolunun Aşağı Əylis kəndindən Ordubad şəhərinin girişinə qədər olan 3 kilometr məsafəyə 1400 ədəd meyvə ağacı əkilmiş, rayon Mərkəzi Xəstəxanasının həyətinə və şəhərin park və xiyabanlarına birillik gül toxumları səpilmişdir.

Culfa rayonunun sakinləri Naxçıvan-Ordubad magistral yolunun kənarındakı bağlara və Culfa şəhərinin giriş hissəsinə bərpa məqsədilə 350 ədəd meşə ağacı əkmiş, yaşıllıqlara aqrotexniki qulluq göstərmişlər.

Kəngərli sakinləri Qabıllı kəndində yol kənarlarındakı yaşıllıqlara aqrotexniki qulluq göstərmiş, su arxları çıxarılaraq ağaclar suvarılmış, təhsil, səhiyyə və mədəniyyət müəssisələrinin əməkdaşları park və xiyabanlara birillik gül toxumları səpmişlər.

Şahbuzlular rayonunun Daylaqlı kəndi ərazisində 0,4 hektarlıq yeni salınmış meyvə bağında 316 ədəd, Naxçıvan-Şahbuz-Batabat magistral avtomobil yolunun kənarlarında bərpa məqsədilə 217 ədəd meyvə ağacı, park və xiyabanlarda 170 ədəd həmişəyaşıl ağac, 350 ədəd gül kolu əkmişlər.

Sədərək rayonunun sakinləri Qaraağac kəndində yeni salınmış 14 hektarlıq bağda 1100 ədəd meyvə ağacı əkmiş, Heydərabad qəsəbə tam orta məktəbinin, Mərkəzi Xəstəxananın və Sədərək Gömrük-Keçid Məntəqəsinin həyətində yaşıllıqlara aqrotexniki qulluq göstərmişlər.

Həmin gün muxtar respublikanın bütün bölgələrində ahıl vətəndaşların həyətlərində təmizlik və abadlıq işləri aparılmışdır.

İməciliklərdə, ümumilikdə, 24 min 583 nəfər iştirak etmiş, 12 min 287 ədəd meşə, meyvə, həmişəyaşıl ağac və gül kolları əkilmişdir.

**✍ M.MƏMMƏDOV**




# Tarix







## Şahid kimi gərəyimdi bu qala...



*Top ağzından oxunubdu ağısı,*
*Çilik-çilik ürəyimdi bu qala.*
*Dost adından danışanda yağısı*
*Şahid kimi gərəyimdi bu qala.*

Pillələrlə Naxçıvanqalaya doğru addımladıqca bir şairin qalalar haqqında yazdığı bu bəndi xatırlayıram. Bəli, həqiqətən də, mənim ölkəmin ululardan ulu tarixindən xəbər verən hər bir qalasını bu tarixin düşmənləri topa tutub, kərpic-kərpic, daş-daş sökməyə çalışıb. Bu qalaları yer üzündən silmək cəhdləri ilə təkcə "tariximin pəncərəsini sındırmayıb" özgə daşları, həm də mənim, sənin, onun, bizim – hamımızın ürəyini çilikləyib. Sonra isə yağılar dost cildinə giriblər, dost cildində danışıblar, dost adından danışıblar. Bizimsə tarixə şahid olan qalalarımız bizə unutduruldaqca, tariximizi unutmuşuq, özümüzü unutmuşuq, kimliyimizdən uzaqlaşmışıq, parçalanmışıq. Sonra da kimimiz axan çayı ittiham etmişik, kimimiz tikanlı məftilləri, kimimiz də... Özümüzü ittiham etməyi unutmuşuq, tariximizi qorumadığımız üçün özümüzü günahlandırmağı unutmuşuq.

Tanrı bizə onda rəhm edib ki, bir gün "Tariximiz bizim üçün dərs olmalıdır", – deyən ŞƏXSİYYƏT gəlib tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirmək lazım olduğunu bizə xatırladıb. Onun bu müdrik sözlərini davamçıları unutmayıblar, əksinə, bu fikrin işığında yola çıxaraq daha böyük işlərə imza atıblar: "Naxçıvanqala"nın tarixi memarlıq ənənələrinə əsaslanmaqla bərpası və Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması kimi. Bu mənada "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamını müasir dövr Naxçıvan tarixinin keçmişimizə işıq tutan ən müdrik tarixi, siyasi və hüquqi sənədlərindən biri adlandırmaq olar. Bu müdrik sərəncamda da qeyd olunduğu kimi, "Azərbaycanın Naxçıvan Muxtar Respublikasının ərazisi dünyanın ən qədim insan məskənlərindən biridir. Azərbaycan türkləri tarixin bütün dövrlərində bu ərazidə yaşayaraq zəngin mədəniyyət və memarlıq nümunələri yaratmışlar.

Yaradılmış memarlıq abidələri içərisində qalaların özünəməxsus yeri var. Onlardan biri də Naxçıvanqaladır. Aparılmış tədqiqatlar göstərir ki, Naxçıvanqala təkcə müdafiə məqsədi daşımamış, eyni zamanda bu tarixi ərazidə formalaşmış ilkin şəhər mədəniyyətinin də ayrılmaz elementinə çevrilmişdir".

İndi Naxçıvanqala yenə də əvvəlki əzəməti ilə gələcəyə boylanır. Azərbaycan dövlətinin qüdrətindən güc alır. Aprelin 7-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yeni yaradılan "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi ilə tanışlığı məhz bu qüdrətin sayəsində Azərbaycanda tarixi, mədəni, dini abidələrin qorunması işinə yüksək diqqət göstərildiyini sübut edir.

Bu qalada 1957-1959-cu illərdə aparılmış arxeoloji tədqiqatlar zamanı buradan daha qədim dövrlərdən xəbər verən maddi-mədəniyyət nümunələri aşkarlanıb. Təkcə onu qeyd etmək kifayətdir ki, arxeoloqların fikrincə, burda aşkarlanan daş gürzlər eramızdan əvvəl III-II minilliklərdə duz mədənlərində istifadə edilib. Qala haqqında bir çox orta əsr tarixçiləri – türk səyyahı Övliyya Çələbi, fransız səyyahları Şarden və Frehanq məlumatlar vermişlər. Beləliklə, Naxçıvanqalanı həm də 5000 illik ilkin şəhər mədəniyyəti tarixinə malik Naxçıvan şəhərinin tarixinin ən keşməkeşli dövrlərinin şahidi adlandırmaq olar.

"Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması zamanı da məhz verilən bütün bu məlumatlardan istifadə edilib. Kompleksin təkcə qalanı deyil, həm də yaxınlıqdakı Nuh Peyğəmbərin məzarüstü türbəsini də əhatələməsi xüsusi əhəmiyyət kəsb edir. Çünki əsrlər boyunca bu iki tarixi məkan yanaşı mövcud olmuş, bu diyarın bəşəriyyətin ən qədim mərkəzlərindən biri olduğunu əks etdirmişlər. İndi bu tarixi məkanı ziyarət edən hər bir şəxs təkcə qala və Nuh Peyğəmbərin məzarüstü türbəsi haqqında deyil, bütövlükdə, Naxçıvan diyarının çoxəsrlik tarixi haqqında məlumat almaq imkanına malikdir. Burada yaradılan orijinal tərtibatlı muzeydəki eramızdan əvvəl V minilliyə aid təsərrüfat küpü, eramızdan əvvəl V-III minilliyə aid müxtəlif məişət əşyaları, Son Tunc və Erkən Dəmir dövrünə aid keramika məmulatları, mis alətlər, qəbirüstü abidələr, silahlar, zirehli geyim hissələri, qədim xalçalar və XIX əsrə aid milli geyimlərlə tanış olmaq Naxçıvanın ulu tarixini vərəq-vərəq oxumaq deməkdir.

Bəs bu Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması ilə bağlı tədqiqatçılar nə düşünürlər?

AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev deyir ki, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması, Naxçıvanqalanın bərpası Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanın tarixinin öyrənilməsi və təbliği istiqamətində həyata keçirilən işlərin davamıdır. Bu qala uzun tarixi dövr ərzində Naxçıvan şəhərini xarici müdaxilələrdən mühafizə etmişdir. Tarixi abidələrin tədqiqi və öyrənilməsindən sonra bu cür muzeylərin yaradılması və tariximizin təbliği mühüm əhəmiyyət kəsb edir. Biz Naxçıvan tarixinin öyrənilməsinə xüsusi diqqət göstərən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova minnətdarlığımızı bildiririk. Göstərilən bu diqqət və qayğı bizim – tarixçilərin və arxeoloqların məsuliyyətini daha da artırır, eyni zamanda tədqiqatlarımızı genişləndirməyimizə stimul verir.

Naxçıvan Özəl Universitetinin Humanitar elmlər kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru Elbrus İsayev: "Naxçıvanın zəngin tarixi və mədəni irsi, təbii zənginlikləri və coğrafi üstünlüyü bütün zamanlarda nəhəng imperiyaların marağına səbəb olmuş, regionda möhkəmlənmək uğrunda ən ağır müharibələrdən belə çəkinməmişlər. XIX əsrin sonu, XX əsrin əvvəllərində dünyanın siyasi mənzərəsindəki dəyişikliklər və baş verən ictimai-siyasi proseslər Naxçıvanın da taleyində bir sıra yeni qərarların qəbul edilməsinə rəvac vermişdir. Bu qərarlardan ən mühümü bugünkü Naxçıvanın çiçəklənməsində və etibarlı şəkildə müdafiə olunmasında əsaslı rol oynayan muxtariyyət statusunun bölgəyə verilməsidir. Ölkə Prezidentinin Naxçıvana hər səfərində istifadəyə verilən obyektlər Naxçıvanın infrastruktur potensialını daha da möhkəmləndirir. Cənab Prezidentin budəfəki səfəri də istisna olmadı. Bu səfər tariximizə böyük diqqəti və qayğını təzahür etdirdi. Bir tərəfdən Prezidentin Naxçıvana səfəri, digər tərəfdən Naxçıvanın muxtariyyət yubileyinin qeyd olunması özü-özlüyündə bir tarixi hadisədirsə, Naxçıvanqalaya ikinci həyatın bəxş edilməsi tariximizə, keçmişimizə sayğının təzahürüdür. Təbii ki, Naxçıvanda son illərdə aparılan quruculuq işlərində tarixi abidələrin qeydə alınması, qorunması, bərpası və təbliği xüsusi yer tutur. Bu işlər bir daha ümummilli lider Heydər Əliyevin ideyalarına sadiqlikdən, böyük Vətən sevgisindən xəbər verir".

AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Musa Quliyev: "Naxçıvanqala qədim oğuz-kəngərli yurdu Naxçıvanın ən möhtəşəm müdafiə tikililərindən biri olmuşdur. Mənbələrdə və sənədlərdə saxlanılan məlumatlar da sübut edir ki, bu qala Naxçıvanın yenilməzlik, əyilməzlik simvolu olmuşdur. Naxçıvanqalada bərpa işlərinin aparılması, Naxçıvan tarixinin müxtəlif dövrlərinə aid eksponatların nümayiş etdirildiyi muzeyin yaradılması, Nuh Peyğəmbərin məzarüstü türbəsinin də bu kompleksə daxil edilməsi mühüm əhəmiyyət kəsb edir. Bütün bunlar, eləcə də tədqiqatçı kimi kiçik fəaliyyətimizə dövlət səviyyəsində verilən böyük qiymət bizi sevindirir. Bu, ümumilikdə, dövlətimizin, dövlət rəhbərlərimizin tariximizə, qəhrəmanlıqla dolu keçmişimizə doğma münasibətinin təzahürüdür".

AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun elmi katibi, tarix üzrə fəlsəfə doktoru Yaşar Rəhimov: "Naxçıvanqala haqqında məlumatlar XIX əsrə aid rus mənbələrində də saxlanılmışdır. Naxçıvanın 1827-ci ilə aid planında bu qalanın sxematik qeyd olunması göstərir ki, qala XIX əsrdə də fəaliyyətdə olmuşdur, sonrakı dövrlərdə, xüsusilə keçmiş sovetlər dönəmində tariximizə ögey münasibətin göstərildiyi zaman bu tarixi qala da diqqətsizliklə üzləşmişdir. Bu qalaya yenidən ikinci həyat verən ŞƏXSİYYƏTLƏR təkcə bir qalaya deyil, ümumilikdə, bütün tariximizə sahib çıxırlar. Mən də həyata keçirilən bu möhtəşəm işlərə görə dövlətimizə minnətdarlığımı bildirirəm".

***Naxçıvanlı diplomatlarla bağlı araşdırmalarımızı davam etdirərkən bir ad xüsusi diqqətimizi çəkmişdi. Səid Sadıqovun 1995-ci ildə çapdan çıxan "Naxçıvan Muxtar Respublikası tarixindən" adlı kitabında və bir neçə müəllifin əsərində XX əsrin 20-ci illərində Naxçıvanın Qarsdakı müvəkkilinin Balabəy adlı bir şəxs olduğu qeyd edilsə də, müəlliflərdən heç biri bu şəxsin soyadı və kimliyi haqqında məlumat verməmişdir. Digər bir qrup müəllif isə Naxçıvanda muzey işi ilə bağlı qeydlərində ilk muzeyin yaradıcısı kimi Balabəy Əlibəyovun adını çəkmişdir.***

*Naxçıvanlı diplomatlar*

## Bir adın izi ilə

### *və yaxud Naxçıvanın Qarsdakı müvəkkili kim olub?*

Apardığımız müqayisələr göstərdi ki, o dövrdə Naxçıvanın Qarsdakı müvəkkili kimi adı çəkilən şəxs məhz Balabəy Əlibəyovdur.

Qeyd edək ki, Maku, Xoy və Təbrizdən fərqli olaraq, Qarsda Naxçıvanın Konsulluğu yox, Rusiya Sovet Federativ Sosialist Respublikasının Qarsdakı Konsulluğunun yanında müvəkkilliyi fəaliyyət göstərmişdir. Məlumat üçün deyək ki, 7 fevral 1924-cü ildə SSRİ ilə Türkiyə arasında konsulluq təşkilatlarına dair Ankarada nota mübadiləsi olmuş və bundan sonra SSRİ-nin İstanbul, İzmir, Qars, Artvin, Ərzurum və Trabzon şəhərlərində konsulluqları fəaliyyətə başlamışdır. İzmir, Qars, Artvin, Ərzurum və Trabzondakı konsulluqlar fəaliyyətlərini 1938-ci ilin fevralında dayandırmışlar.

Hələlik, Qarsdakı müvəkkil Balabəyin məhz Balabəy Əlibəyov olduğunu göstərən ən dəqiq fakt filologiya elmləri doktoru Fərman Xəlilovun "Naxçıvanı öyrənən elmi cəmiyyət" kitabında əksini tapmışdır. Belə ki, müəllif Naxçıvan muzeyi ilə bağlı tədqiqatlar apararkən ədəbiyyatşünas, Azərbaycanın əməkdar müəllimi, filologiya elmləri namizədi Lətif Hüseynzadənin fikirlərini öyrənmişdir. Müəllif yazır: "...B.Əlibəyovu yaxından tanıyan filologiya elmləri namizədi L.Hüseynzadənin 2005-ci il iyun ayında bizimlə söhbəti zamanı xatırladığına görə, B.Əlibəyov Qarsda səfirlikdə (konsulluqda – E.K.) hansısa bir vəzifədə işləyirmiş və Qarsla əlaqələri yaxşı imiş". Qeyd edək ki, Balabəy Əlibəyovun Naxçıvan muzeyi haqqında Naxçıvan Dövlət Tarix Muzeyinin direktoru Nizami Rəhimov da tədqiqat aparmış və onun muzeyçilik fəaliyyəti ilə bağlı məlumatlar vermişdir.

Axtarışlarımız zamanı müəyyən edə bildik ki, Balabəy Əlibəyov Naxçıvanda 1855-ci ildə anadan olmuşdur. Naxçıvan diyarının təhqiqi üzrə xüsusi komissiyanın 4 aprel 1925-ci ildə tərtib olunmuş 6 nömrəli protokolunda Balabəy Əlibəyov haqqında verilən məlumatda onun 70 yaşı olduğu göstərilmişdir.

Balabəy Əlibəyov 1903-1908-ci illərdə polis zabiti, 1908-1911-ci illərdə Qars polis idarəsinin rəsmi tərcüməçisi kimi xidmət etmişdir. 1911-ci ildə pensiyaya çıxan Balabəy Əlibəyovun təcrübəsi, yerli əhali arasında olan nüfuzu, eləcə də rus, türk, fars və digər dillərə yaxşı bələd olması onun xidmətini pensiya ala-ala davam etdirməsi ilə nəticələnmiş, beləliklə, o, 1911-1917-ci illərdə polis idarəsində həm də tərcüməçi kimi fəaliyyət göstərmişdir. 1917-ci ildən 1920-ci ilə qədər Balabəy Əlibəyovun fəaliyyəti Urmiya şəhəri ilə bağlı olmuşdur. Bu üçillik müddətdə o, Urmiyada polismeyster kimi fəaliyyət göstərmişdir.

1920-ci ildən başlayaraq sovet müəssisələrində xidmət etmiş Balabəy Əlibəyovun Naxçıvanın Qarsdakı müvəkkili kimi fəaliyyəti 1924-cü ilin mart-aprelindən 1925-ci ilin əvvəllərinə qədər davam etmişdir. Hələlik, onun müvəkkil kimi fəaliyyətini nə zaman başa vurduğunu dəqiqləşdirə bilməsək də, 1925-ci ilin aprelində onun artıq diplomatik fəaliyyətdə olmadığı məlumdur. Çünki Naxçıvan diyarının təhqiqi üzrə xüsusi komissiyanın 4 aprel 1925-ci ildə tərtib olunmuş 6 nömrəli protokolunda Balabəy Əlibəyov Naxçıvan MSSR Xalq Maliyyə Komissarlığının maliyyə agenti kimi mühakimə edilmiş və nəticədə, işdən çıxarılmışdır.

Mənşəcə köklü bəy nəslindən olan və uzun illər müxtəlif dövlət vəzifələrində çalışan Balabəy Əlibəyov həm də məşhur kolleksioner olmuş və Naxçıvanın tarixinə, etnoqrafiyasına, mədəniyyətinə aid müxtəlif əşyalar toplamışdır. Balabəy Əlibəyovun hələ 1917-1918-ci illərdə Naxçıvan şəhərinin mərkəzi küçələrindən birində yerləşən mülkündə muzey təşkil etməsi onun tariximizə, mədəniyyətimizə nə qədər böyük məhəbbətlə yanaşdığının təzahürü olmuşdur. Qeyd edək ki, Nizami Rəhimovun "Balabəy Əlibəyovun Naxçıvan muzeyi" adlı məqaləsində yazdığına görə, bu mülk şəhərin mərkəzində – indiki Atatürk küçəsindəki və son illərədək kommunal və məişət müəssisələri kombinatının yerləşdiyi binanın yerində olmuşdur. Qeyd edək ki, hal-hazırda həmin ərazidə (Kapital Bankın Naxçıvan Muxtar Respublika İdarəsinin yaxınlığında) yeni ictimai yaşayış binası inşa edilməkdədir.

Beləliklə, 1925-ci ilin aprelində Xalq Maliyyə Komissarlığının maliyyə agenti vəzifəsindən azad edilən Balabəy Əlibəyovun sonrakı dövr taleyində təşkil etdiyi şəxsi muzeyi əhəmiyyətli rol oynamışdır. Belə ki, Naxçıvan MSSR Xalq Komissarları Şurasının 30 oktyabr 1924-cü il tarixli qərarı ilə yaradılan Naxçıvan Tarix-Etnoqrafiya Muzeyinin təşkil edilə bilməməsi Balabəy Əlibəyovun şəxsi muzeyinin respublika mülkiyyətinə keçməsi haqqında qərarla nəticələnmişdir. Naxçıvan MSSR Xalq Komissarları Sovetinin 6 yanvar 1926-cı il tarixli qərarı ilə muzey respublika mülkiyyətinə qəbul edilmiş, Balabəy Əlibəyov isə ayda 40 manat məvacib almaqla ömürlük olaraq muzeyin direktoru təyin edilmişdir. Naxçıvanı Öyrənən Elmi Cəmiyyətin 12 fevral 1927-ci il tarixli, 33 nömrəli protokolunda da muzeyin direktoru kimi Balabəyin adı çəkilmişdir.

Ehtimal etmək olar ki, Balabəy Əlibəyovun vəfatı 1929-1930-cu illərə təsadüf etmişdir. Çünki artıq 1930-cu ildən biz Naxçıvan muzeyinin direktoru vəzifəsində tariximizin öyrənilməsinin digər bir cəfakeşi Mirbağır Mirheydərzadəni görürük.

Beləliklə, XX əsrin 20-ci illərində Qarsdakı RSFSR Konsulluğu yanındakı Naxçıvan müvəkkilliyində çalışmış Balabəy Əlibəyov təkcə Naxçıvanda muzeyşünaslıq işinin banilərindən biri olmamış, həm də bacarıqlı, rus, fars, türk dillərinə dərindən bələd olan bir diplomat kimi bir müddət fəaliyyət göstərmişdir.

**Səhifəni hazırladı: Elnur KƏLBİZADƏ**

**Bu yazını hazırlayarkən yadıma görkəmli yazıçımız Mir Cəlal Paşayevin "Bir gəncin manifesti" əsərindəki "İtə ataram, yada satmaram" fəsli düşdü. Böyük oğlu zindanlara atılan, ehtiyac ucbatından kiçik oğlu uşaq yaşlarında bir tikə çörək qazanmaq üçün özgə qapılara düşən ana öz əlləri ilə toxuduğu, gözünün nurunu, ürəyinin döyüntülərini həkk etdiyi xalçanı satmaq üçün həftəbazarına çıxarır. Xalçanın çox qiymətli olduğunu bir əcnəbi ilk baxışda hiss edir. Onu almaq istəyir. Dəfələrlə təkid etsə də, ana razı olmur. Ananın zəngin daxili aləmi bu vaxt üzə çıxır: "Yada satmaram".**

*Milli dəyərlərimizi öyrənək və yaşadaq*

# Ənənəni qoruyaq, evdə xalça toxuyaq



Bitkin bir əsər təsiri bağışlayan bu fəsildə qürurlu Azərbaycan qadınının xalqımızın ən qiymətli milli dəyərlərindən biri olan xalçaya münasibətini görəndə istər-istəməz düşünürsən: budur, dəyərlərimizə ehtiram; budur, ulu keçmişdən bizə yadigar qalan sərvətlərə məhəbbət.

Bu gün xalçaçılığın inkişafı ilə bağlı həyata keçirilən tədbirləri göz önünə gətirsək, milli dəyərlərimizə ehtiram və məhəbbətin yüksək səviyyədə olduğunu görərik.

Elə buradaca qədim diyarımızda xalçaçılığın tarixinə qısa səyahət yerinə düşər.

Aparılan arxeoloji tədqiqatlar nəticəsində xalça toxunuşunda istifadə olunan ibtidai gil cəhrələr və sümükdən hazırlanmış iy ucları kimi materialların əldə edilməsi Naxçıvanın Azərbaycanın ən qədim toxuculuq mərkəzlərindən biri olduğunu sübuta yetirir. Orta əsr ərəb müəllifləri də Naxçıvanda xalçaçılığın geniş vüsət alması və bu ərazidə toxunan xalçaların şöhrət qazanması barədə öz əlyazmalarında dəyərli məlumatlar veriblər.

Azərbaycan xalça sənətini öz ənənəvi naxışları və elementləri, özünəməxsus şux rəng çalarları ilə zənginləşdirən Naxçıvan xalçaları bu gün də öz dəyərini saxlamaqdadır. Qeyd edək ki, xalça sənətinin Naxçıvanda geniş yayılmasına xalqımızın məişət və estetik tələbatı rəvac verib. Bu ərazidə istehsal edilən iriölçülü, qalın toxunuşa malik xovlu və keçə, palaz, cecim, kilim, şəddə, zili kimi xovsuz xalçalardan evlərdə döşəmələrin örtülməsində, otaqların isidilməsində və bəzədilməsində istifadə edilib. Xalça sənəti Naxçıvanın Şərur, Şahbuz, Ordubad, Culfa bölgələrində daha geniş yayılıb.

Bu yazımızda Şahbuz rayonunda xalçaçılığın yaşadılmasında əməyi olan insanlar, bu bölgədə xalça toxunuşunun xüsusiyyətləri və xalçaçılığın inkişafına göstərilən dövlət qayğısı barədə məlumat verəcəyik.

Şahbuz xalçalarını bəzəyən əsas elementlərdən şaquli istiqamətli zolaqlar, romblar, qarmaqlı həndəsi elementlər və nəbati ornamentlər, heyvan təsvirləri kimi naxışlar xalqın genetik yaddaşından silinməyən inanc və təsəvvürlərlə bağlıdır. Bu naxışlar sistemi semantika müxtəlifliyindən asılı olmayaraq, bir məkan üzərində real şəkildə ənənəvi üslubda yerləşdirilərək xalçaya ritmik və dinamik ahəngdarlıq verir. Naxçıvan xalçaları içərisində öz spesifik toxunuşu və bədii quruluşu ilə seçilən xovsuz xalça növü olan şəddə süjet semantikası baxımından çox maraqlıdır.

Rayonun Kolanı, Aşağı və Yuxarı Qışlaq, Biçənək, Qızıl Qışlaq və Güney Qışlaq yaşayış məntəqələrində xalça ustalarının yaratdıqları xalça nümunələri ən qiymətli sərvət kimi qorunub saxlanılır. Bir vaxtlar Teymur Rüstəmovun, Zəlbab Mədətovanın, Şükufə Lazımovanın, Aruzə Seyidovanın, Nənəş Həsənovanın və başqalarının toxuduqları xalçalar işlənmə texnikası, ilmə çeşidləri, rəng çalarları ilə seçilir. Yaxşı haldır ki, rayonda xalçaçılığın inkişafına ciddi diqqət yetirilir.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən cari ilin əvvəllərində muxtar respublikanın Şərur, Babək, Kəngərli, Culfa, Ordubad və Şahbuz rayonlarında xalçaçılıqla məşğul olan qadınlara hana, yun ip, lazım olan toxuculuq ləvazimatları verilib. Bu qayğıdan Şahbuz rayonunun Kolanı kəndində yaşayan Fizzə Quliyevaya, Adilə Namazovaya, Bəsti Əhmədovaya, Mətanət Məmmədovaya da pay düşüb. Bu günlərdə xalça toxuyanlarla onların evlərində görüşdük. İş şəraitləri ilə tanış olduq. Hamısı razılıqla bildirdi ki, dövlətimiz onları öz evlərində daimi işlə təmin edib. Xalça toxumaq üçün yun və bütün ləvazimatları pulsuz verib. Bundan böyük qayğı olarmı?

Fizzə Quliyeva bu sənətin yaşadılması üçün muxtar respublikada həyata keçirilən tədbirləri ürəkdən dəstəklədiyini, onlara yaradılmış şərait üçün minnətdarlığını bildirdi. Xalçaçılıq sənətini yaşatmaq və gələcək nəsillərə ərməğan etmək üçün əllərindən gələni əsirgəməyəcəklərini vurğuladı.

Mətanət Məmmədova deyir ki, toxuduğu ilk xalçanı artıq təhvil verib. Gördüyü işə görə əməkhaqqı da alıb. İkinci xalçanı toxumağa hazırlaşır. Müsahibim əminliklə onu da bildirdi ki, bu xalçanı daha tez müddətdə toxuyacaq. Çünki əli hanaya tam öyrəşib, heç bir çətinliyi yoxdur. Həm də istəyir ki, gənc qızlara da bu sənəti öyrətsin.

O, "xalçaçılıq əsl qadın sənətidir", – deyib söhbətinə davam edir:

– Kənddə bir vaxtlar primitiv qaydada düzəldilmiş hanalardan istifadə edirdilər. Həmin hanalara indi də bəzi həyətlərdə rast gəlmək olar. Ancaq dövlətimizin bizə verdiyi hanalarda işləmək çox asandır. Bu hanaları qurmaq, yerini dəyişdirmək heç də köhnə hanalar kimi çətin deyil. Yəni bir nəfərin gücü ilə də bu işi görmək olar.

Söhbətimizin bu yerində Naxçıvanda xalçaçılıqla məşğul olan yaşlı adamlardan eşitdiyim bir məsələni yada saldım. Tarixən xalça toxunuşunda kollektiv əməyindən istifadə edilib. Kollektiv isə, adətən, bir tayfanın üzvlərindən ibarət olub. Danışırlar ki, hər tayfanın özünəməxsus rəmzlərindən bəzi xalçalarda istifadə edilib. Ancaq həmin xalçalar nə satışa çıxarılıb, nə də evdə ayaq altına salınıb. Belə xalçalar yalnız divarlardan asılıb. Fikrimizcə, geniş izahata ehtiyac yoxdur. Böyük dövlətçilik məktəbi yaratmış Naxçıvanda rəmzlərə belə qiymət vermək təbiidir. Kolanı xalçaçıları da bu rəmzlərdən gələcək işlərində istifadə etmək niyyətindədirlər. Bizə isə bu niyyətin yerinə yetməsində onlara uğurlar arzulamaq qalır: Niyyətinizə çatasınız!

✍ **Muxtar MƏMMƏDOV**

*Futbol*

# "Araz-Naxçıvan"ı çempionluqdan 4 xal ayırır

***Futbol üzrə Azərbaycan I divizionunun lideri "Araz-Naxçıvan" futbol komandası çempionatın 26-cı turunu da qələbə ilə başa vurdu. Doğma azarkeşlər önündə Qazaxın "Göyəzən" futbol komandasını qəbul edən qırmızı-ağlar böyükhesablı qələbə qazanmaqla çempionluğa bir addım daha yaxınlaşdı. İndi komandamızın mövsümü qızıl medallarla başa vurması üçün yalnız 4 xala ehtiyacı var. Mövsümün başa çatmasına 4 tur qaldığını nəzərə alsaq, o zaman indidən "Araz-Naxçıvan"ı təbrik etmək olar.***



Turnir cədvəlinin autsayderi "Göyəzən" qarşısına "Araz-Naxçıvan" futbol komandasının baş məşqçisi Əsgər Abdullayevin fərqli heyətlə çıxacağı gözlənilirdi. Birincisi, komandamızda cəzalı sayının çox olması bunu deməyə əsas verirdi. Qırmızı vərəqə ilə cəzalanan Bəxtiyar Soltanov və Ruslan Abıyevə ötən tur sarı vərəqə limitini dolduran Akif Tağıyev və Əlimirzə Daşzərini də qoşulmuşdu. İkincisi isə bir qədər zəif təsir bağışlayan Qazax təmsilçisi önündə əsas heyət futbolçularının istirahət edəcəyi gözlənilirdi. Lakin Ə.Abdullayev oyundan öncə açıqlamasında bütün oyunlara eyni tərzdə hazırlaşdıqlarını deməklə çempionluğa iddialı olduqlarını bir daha ortaya qoymuşdu. Odur ki, baş məşqçi meydana əsas heyət futbolçularını buraxmışdı. Qapıda Emil Balayevə bel bağlayan məşqçi, müdafiə xəttini Tural-Ruslan-Mikayıl-Cavid dördlüsünə tapşırmışdı. Yarımmüdafiə xəttində Eşqin-Tərlan-Elgiz triosu isə üçlü hücum xəttində Elmin-Elgün-David tandeminə köməklik edirdi.

Baş məşqçinin tapşırıqlarına əməl edən futbolçular ilk dəqiqələrdən meydana qələbə əzmi ilə çıxdıqlarını nümayiş etdirdilər. Artıq ilk 5 dəqiqədə rəqib iki dəfə mərkəzə dəvət oluna bilərdi. Əvvəlcə David Canıyevin başla zərbəsi qapıçıdan keçsə də, rəqib müdafiəçi topu qapı xəttindən çıxarmağı bacardı. Az sonra Elmin Çobanov diqqət mərkəzinə düşdü. Onun qüvvətli zərbə ilə vurduğu top qapıdan bir qədər aralı keçdi. Cərimə zərbələrinin mahir ustası Tərlan Xəlilovun, təxminən, 25 metrdən mükəmməl zərbəsini isə qapıçı dəf etdi. Rəqib qapıçı Həsən Həsənov bu görüşdə özünəməxsus reaksiyası ilə yadda qaldı. O, 20-ci dəqiqədə Davidin daha bir qüvvətli zərbəsini alqışlayiq reaksiya ilə qapıdan uzaqlaşdırdı. Ancaq onun qapıda nəhəngləşməsi 23 dəqiqə çəkdi. Bu dəfə sağ cinahdan Elgün Abbaslının ötürməsindən sonra hamıdan yüksəyə tullanan David Canıyev qapıdakı tilsimi qırmağa müvəffəq oldu – 1:0. Azarkeşlər yenicə qolun sevincindən ayrılmışdılar ki, David onları yenidən sevindirdi. Bu dəfə Tərlan Xəlilovun ötürməsindən sonra rəqib müdafiəçiləri aldadan hücumçumuz qapının uzaq küncünü dəqiq nişan aldı – 2:0. Bu, Davidin cari mövsümdə vurduğu 16-cı qol oldu. İndi onu qolvurma liderliyindən yalnız 2 qol ayırır. Qoldan sonra tamamilə müdafiəyə çəkilən "Göyəzən" ilk hissənin sonunadək hesabı qorumağa müvəffəq oldu. Halbuki 40-cı dəqiqədə Elmin Çobanov hesab arasındakı fərqi artıra bilərdi. Lakin qapı dirəyi hesabın artmasına mane oldu.

Birinci hissəni 2 top fərqi ilə öndə başa vuran "Araz-Naxçıvan" ikinci hissəyə də qolla başladı. 48-ci dəqiqədə künc zərbəsindən sonra müdafiəçilər topu uzaqlaşdırmaq istəsələr də, top müdafiəçimiz Ruslan Zamanovun önünə düşdü. O isə, öz növbəsində, başla qapıçını "ovlamaqda" heç bir çətinlik çəkmədi – 3:0.

Artıq tam olaraq qələbəni təmin edən komandamız 73-cü dəqiqədə daha bir dəfə rəqibi meydanın mərkəzinə dəvət etdi. Meydana yenicə daxil olan Fərid Quliyev cərimə meydançasında rəqib müdafiəçilər tərəfindən kobudluğa məruz qaldı. Bu isə hakim Fərid Məmmədovun diqqətindən yayınmadı. Referi isə tərəddüdsüz 11 metrlikdəki ağ nöqtəni göstərdi. Topa elə "zərərçəkmişin" özü yaxınlaşdı. F.Quliyevin qapıçını məyus etməsi tablodakı rəqəmin də dəyişməsinə səbəb oldu – 4:0. Bu həm də Fəridin cari mövsümdə 3-cü qolu oldu. Bundan sonra komandamız hücuma aktiv əlavə etməsə də, hesab dəyişmədi və cari mövsümdə "Araz-Naxçıvan" futbol komandası 21-ci qələbəsini bayram etdi. Həmçinin 4:0 hesablı qələbə qırmızı-ağların 163 günlük həsrətinə də son qoydu. Belə ki, sonuncu dəfə komandamız məhz bu arenada "Bakılı"nı 4:0 hesabı ilə məğlub etmişdi.

Qeyd edək ki, "Araz-Naxçıvan" növbəti oyununu səfərdə keçirəcək. Bu səfər oyunu aprelin 27-də Yevlaxın "Karvan" futbol komandasına qarşı olacaq.

✍ **Ceyhun MƏMMƏDOV**

## Mövlana mübadilə proqramının tanıdılması olub

Naxçıvan Özəl Universitetində Mövlana mübadilə proqramının tanıdılması münasibətilə tədbir keçirilmişdir. Tədbirdə universitetin Beynəlxalq əlaqələr şöbəsinin Mövlana proqramı üzrə koordinatoru Gülnar Məmmədova çıxış edərək bildirmişdir ki, Mövlana mübadilə proqramı Türkiyənin ali təhsil müəssisələri ilə xarici ölkə ali təhsil müəssisələri arasında tələbə və müəllim mübadiləsini həyata keçirən bir proqramdır.

O da vurğulanmışdır ki, Naxçıvan Özəl Universiteti ilə İstanbul Aydın, Atatürk, Ankara, İstanbul, eləcə də Ardahan universitetləri arasındakı Mövlana mübadilə proqramına əsasən müqavilə imzalanmışdır. Həmin müqaviləyə əsasən, hazırda Naxçıvan Özəl Universitetinin 3 tələbəsi ayrı-ayrı ixtisaslar üzrə İstanbul Aydın Universitetində təhsil alır.

Mövlana mübadilə proqramı əsasında təhsil almaq istəyən tələbələr universitet daxilində müəyyən fənlər əsasında imtahandan keçərək tanınmış universitetlərdə 1 və ya 2 semestr təhsil almaq hüququ qazanacaqlar.

Sonda imtahanda iştirak etmək istəyən tələbələrə ərizə formaları paylanılmışdır.

**Nuray ƏSGƏROVA**

## Aztəminatlı ailəyə baş çəkilib

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Səhiyyə, eləcə də Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin əməkdaşları Naxçıvan şəhərinin Əliabad qəsəbəsi, döngə 27, ev 8 ünvanında yaşayan aztəminatlı Qəhrəman Bağırovun ailəsinə baş çəkiblər. Ailənin məişət şəraiti ilə maraqlanılıb, ailə üzvləri tibbi müayinədən keçirilib, onlara ərzaq payı verilib.

Aztəminatlı ailənin üzvləri diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

**Xəbərlər şöbəsi**

### İtmişdir

Tağıyev Nicat Həsən oğlunun adına olan müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusunun hərbi vəsiqəsi itdiyindən etibarsız sayılır.

### Allah rəhmət eləsin

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin şəxsi heyəti nazir Əhməd Əhmədova, qardaşı **ABBASIN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsinin rəisi Xaləddin Rüstəmov və idarənin kollektivi Əhməd Əhmədova, qardaşı **ABBASIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin Pedaqoji fakültəsinin professor-müəllim kollektivi iş yoldaşları Xəqani İsmayılova və Asəf Əliyevə, əzizləri **GÜLTACIN və HÜSEYNİN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Polis veteranlarından Əkbər Novruzov, Rövşən Ələkbərov, Həsən Əliyev və Əli Bağırov Əhməd və Şahin Əhmədovlara, əzizləri **ABBASIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Filarmoniyasının direktoru Elman Əliyev və filarmoniyanın kollektivi iş yoldaşları Tapdıq Həziyevə və Ramazan Axundova, əzizləri **ŞƏRƏBANI XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Zülfüqar Zülfüqarov ailəsi ilə birlikdə Əhmədovlar ailəsinə, əzizləri **ABBASIN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**ŞƏRQ qapısı**

**Baş redaktor:** TURAL SƏFƏROV

*Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Həsənov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 4020. Sifariş № 364